**Mingəçevir Dövlət Universitetində 2019/2020-ci tədris ilinin yaz semestrində imtahan sessiyasının təşkili qaydaları**

1. Yaz semestrinin imtahan sessiyasının təşkili üzrə:

1.1. Mingəçevir Dövlət Universitetində yaz semestrinin imtahan sessiyası bakalavriat (əyani və qiyabi) və magistratura təhsil səviyyələri üzrə 08.06.2020-ci il tarixindən 07.07.2020-ci il tarixinədək keçirilir.

1.2. Tələbələrin məsafədən (online və offline) dərslərdə iştirakı könüllülük prinsipi əsasında təşkil edildiyindən 2019/20-ci tədris ilinin yaz semestri üzrə davamiyyət tələbi nəzərə alınmır.

1.3. İmtahanlar Pedaqoji fakültə üzrə saat 10:00-da, İqtisadiyyat və idarəetmə fakültəsi üzrə saat 13:00-da, Mühəndislik fakültəsi üzrə saat 16:00-da, Magistratura səviyyəsi və qiyabi təhsil forması üzrə saat 18:30-da başlanır.

1.4. Təhsilalan imtahan günü təyin edilmiş vaxtda online qaydada ("Microsoft Teams" platforması üzərindən) imtahana qoşulmalı və seçdiyi biletin suallarını cavablandırılmalıdır.

1.5. Tələbələrin fənlər üzrə aralıq attestasiyası (biliyinin qiymətləndirilməsi) online şəkildə (video görüntülü) şifahi formada çoxballı (50 ballı) sistemlə həyata keçirilir.

1.6. Biletdə nəzərdə tutulan suallara hazırlaşmaq üçün hər bir tələbəyə 30 (otuz) dəqiqəyədək vaxt verilir və imtahanları fənni tədris edən müəllim də daxil olmaqla müvafiq kafedra tərəfindən müəyyən edilən müəllimlər qrupu götürür.

1.7. Təhsilalanların imtahan nəticələri imtahan başa çatdıqdan sonra 1 (bir) gün ərzində elan olunur.

1.8. İmtahanın nəticəsindən narazı qalanlar yalnız imtahanın nəticəsi elan olunduğu gün Appelyasiya Komissiyasına elektron ərizə (e-mail vasitəsilə) ilə müraciət edə bilərlər.

1.9. İmtahan sessiyasında iştirak edə bilməyən və ya iştirak edib qeyri-müvəffəq qiymət almış tələbələrin fərdi müraciətləri əsasında növbəti semestr başlayana qədər avqust-sentyabr aylarında online imtahan təşkil olunur. İmtahandan öncə istəklərinə uyğun olaraq tələbələrə 3-4 həftə ərzində ödənişsiz icmal mühazirələr təşkil edilir. Bununla bağlı tələbələrin müraciətləri 5 iyul 2020-ci il tarixinə qədər qəbul edilir.

1.10. Tələbə cari semestrdə fənni (fənləri) dinləmədən akademik borcu əvvəlki semestrdə (semestrlərdə) yaranmış iki fənn üzrə təkrar (hər fəndən bir dəfə olmaqla) online imtahanda iştirak edə bilər. Təkrar imtahan üçün ödəniş tələb olunmur.(Normativ təhsil müddətindən sonraya qalan tələbələr istisna edilir.)

1.11. Buraxılış kursları üçün əvvəlki semestrlərdən yaranmış akademik borclar üzrə təkrar imtahanlar iyun ayının 23-dək təşkil edilir və Yekun Dövlət Attestasiyası 01 iyul 2020-ci il tarixinədək başa çatdırılır.

1.12. Buraxılış kurslarında təhsil alan tələbələrin əvvəlki semestrlərdən qalan akademik borcları (iki fənn) üzrə təkrar imtahanlarda iştirakı zamanı fənnin cari semestrdə tədris olunması şərti nəzərə alınmır. Bu halda tələbənin əvvəlki semestrdə (semestrlərdə) akademik borcunu ləğv etmək üçün etdiyi bütün təkrar imtahan cəhdi (cəhdləri) formasından asılı olmayaraq nəzərə alınmır. Təkrar imtahanlar iyun ayının 23-dək təşkil edilir və müvəffəq qiymət alan tələbələr adi qaydada Yekun Dövlət Attestasiyasına buraxılır.

1.13. Yaz semestrinin nəticələrinə görə təqaüd almaq hüququ olan tələbələrin siyahısı sentyabr ayında 2020/2021-ci tədris ili başlayanadək müəyyən edilir. Yaz semestrinin nəticələrinə görə akademik borcu yaranmış və akademik borcu 2020/2021-ci tədris ili başlayanadək ləğv etmiş tələbələr də növbəti semestrdə təqaüd almaq hüququ olan tələbələrin siyahısına daxil edilir.

2. Təhsilalanların biliyinin cari və aralıq qiymətləndirilməsi üzrə:

2.1. Tələbənin aralıq qiymətləndirilməsi hər biri 10 bal olmaqla 5 suala verilən cavab əsasında həyata keçirilir. Tələbənin cari qiymətləndirilməsinin nəticəsi onun aralıq qiymətləndirilməsinin nəticəsinə bərabər götürülür.

2.2. Əvvəlki semestrdə (semestrlərdə) akademik borcu yaranmış və təkrar imtahanda iştirak edən tələbənin cari qiymətləndirilməsinin nəticəsi tələbənin həmin fənni (fənləri) dinlədiyi semestrdəki (semestrlərdəki) cari qiymətləndirilmə nəticəsinə bərabər götürülür.

3. Təcrübə nəticələri üzrə:

3.1. Bakalavriat səviyyəsi üzrə əyani təhsil alan buraxılış kurs tələbəsinin təhsil müddətində topladığı Ümumi Orta Müvəffəqiyyət Göstəricisi (ÜOMG) istehsalat və pedaqoji təcrübənin qiyməti kimi qəbul edilir.

3.2. ÜOMG əsasında müəyyən edilən təcrübənin qiyməti ilə razılaşmayan tələbənin 10 iyun 2020-ci il tarixindən gec olmayaraq müraciəti əsasında onun təcrübəsi növbəti tədris ilinə keçirilir. Həmin tələbə növbəti tədris ilində təcrübəni ənənəvi qaydada tamamlayır, təcrübəni uğurla bitirdikdən sonra mövcud qaydalar əsasında Yekun Dövlət Attestasiyasına buraxılır. Bu zaman tələbə əlavə tədris müddəti üçün ödəniş etmir.

3.3. Magistrantların Elmi-tədqiqat təcrübəsi üzrə nəticələri:

3.3.1. Magistrantın Elmi-tədqiqat təcrübəsinin qiyməti onun Elmi-pedaqoji təcrübəsinin qiyməti kimi qəbul edilir.

3.3.2. Elmi-tədqiqat təcrübəsinin qiyməti ilə razılaşmayan magistrantın Elmi-pedaqoji təcrübəsi növbəti tədris ilinə keçirilir. Həmin magistrant növbəti tədris ilində Elmi-pedaqoji təcrübəni ənənəvi qaydada tamamlayır, Elmi-pedaqoji təcrübəni uğurla bitirdikdən sonra mövcud qaydalar əsasında magistrlik dissertasyasının müdafiəsinə buraxılır. Bu zaman magistrant əlavə tədris müddəti üçün ödəniş etmir.

4. Yekun Dövlət Attestasiyası üzrə:

4.1. Bakalavriat səviyyəsində tədris planının bütün şərtlərini yerinə yetirmiş və müvafiq təhsil haqqını ödəmiş tələbə təhsil müddətində əldə etdiyi nəticələrə (ÜOMG) uyğun olaraq yekun attestasiyadan keçmiş hesab olunur.

4.2. Təhsil müddətində əldə etdikləri nəticələrə (ÜOMG) uyğun çıxarılmış yekun attestasiyanın nəticələri ilə razılaşmayan tələbə 16 iyun 2020-ci il tarixinədək müraciət etməklə online şəkildə (video görüntülü) şifahi formada təşkil olunan buraxılış yekun dövlət imtahanında iştirak edə bilər. Bu zaman tələbənin qiymətləndirilməsi hər biri 20 bal olmaqla 5 suala verilən cavab əsasında həyata keçirilir.

4.3. Magistrlik dissertasiyalarının müdafiəsi ixtisaslaşdırılmış şuraların online (video görüntülü) iclaslarında təşkil edilir. Magistrlik dissertasiyası universitetə 15 iyun 2020-ci il tarixinədək kağız daşıyıcıda və elektron formada şəxsən və ya poçt vasitəsilə müvafiq kafedraya təqdim edilir.

4.4. Müdafiədə iştirak edə bilməyən və təhsil haqqını ödəməyən magistrantlar üçün onların 15 iyun 2020-ci il tarixinədək müraciətləri əsasında iyul-sentyabr aylarında online qaydada müdafiələr təşkil edilir.

5. Yay semestri üzrə:

5.1. 2019/2020-ci tədris ilinin Yay semestrində tədris və imtahanlar məsafədən (online) təşkil edilir.